**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№036/356**

**Bakı şəhəri** “05” iyul 2024-cü il

**Azərbaycan Respublikası ərazisinin başqa ölkədən keçə biləcək yoluxucu heyvan xəstəlikdən qorunması məqsədilə tətbiq olunan məhdudiyyətə yenidən baxılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2024-cü il 28 may tarixli rəsmi məlumatına əsasən, Gürcüstanın Aşağı Kartli (Kvemo Kartli) regionunda qeydə alınmış xırdabuynuzlu heyvanların taun xəstəliyi aradan qaldırılması və xəstəliyin ləğv edilməsi ilə bağlı ölkənin hesabatı ÜHST tərəfindən qəbul edilərək “Ümumdünya Heyvan Sağlamlığı İnformasiya Sistemi (WAHIS)” vasitəsilə yayınlanıb.

Bununla əlaqədar, respublika ərazisinin sözügedən yoluxucu xəstəlikdən qorunmasına dair Agentliyin müvafiq qərarı ilə Gürcüstandan xırdabuynuzlu heyvanların Azərbaycan Respublikasına idxalına, habelə ölkəmizin ərazisindən keçməklə tranzit daşınmasına tətbiq edilmiş məhdudiyyətə yenidən baxılmasına zərurət yaranıb.

Qeyd olunları nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və Gürcüstan Milli Qida Agentliyi tərəfindən təqdim olunmuş hesabat nəzərə alınsın.

**2.** Agentliyin 2024-cü il 4 mart 021/341 nömrəli qərarı ilə Gürcüstan ərazisində ölkə üzrə təyin edilmiş məhdudiyyət, zonalaşma prinsipi nəzərə alınmaqla, Aşağı Kartli regionunda xırdabuynuzlu heyvanların taun xəstəliyi baş vermiş təsərrüfatdan 10 km radius tətbiq olunsun.

**3.** Epizootik risk amillərinin mövcudluğu nəzərə alınaraq, bu qərarın 2-ci bəndində adıçəkilən ölkənin sağlam ərazilərindən ölkəmizə idxal edilən həmin mallar yüksək risk qrupuna aid edilsin və daxil olan yükün hər partiyası laboratoriya müayinəsinə cəlb olunsun.

**4.** Bu qərarın 2-ci bəndinin icrasının təmin edilməsi üçün, eyni zamanda sözügedən ölkənin qeyd olunan inzibati ərazi vahidindən ölkə ərazisinə və yaxud həmin inzibati ərazi vahidindən tranzitlə keçib respublika ərazisinə daxil olan, habelə respublika ərazisindən tranzitlə digər ölkələrə gedən nəqliyyat vasitələrinin gömrük-sərhəd buraxılış məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

**5.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**6.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer